Tarixi təhrif etmək və ya onu unutmaq gələcək nəsillərin qınağı üçün əsaslı zəmindir

Sahib ABDULLAYEV,
yazıçı-publisist

Artıq yurdsuz-yuvasız qaldığımızın üçüncü onilliyini yaşayırıq. Bu müddətdə içimiz göynəyə-göynəyə nələr yaşadığımızı bir Allah bilir, bir də biz özümüz. Elə bu göynərtilər də doğma yurd-yuva haqqında, itirilmiş torpaqlar haqqında, onun adamları haqqında müxtəlif forma və məzmunlu əsərlərin meydana gəlməsinə vəsilə olub. Bu müddətdə Cəbrayıl və cəbrayıllılarla bağlı bir neçə kitab işıq üzü görüb. Və bu kitabların hər biri ədəbi-bədii və elmi-məntiqi dəyərindən asılı olmayaraq cəbrayıllılar üçün bir armağan olub. Qeyd etmək istəyirəm ki, bu kitabların hamısı Cəbrayıl RİH başçısı, duyumlu ziyalı və öz yurd-yuvasına, öz torpağına bağlı el oğlu olan Mahmud Quliyevin köməyi və mənəvi dəstəyi ilə araya-ərsəyə gəliblər. Son günlər belə kitablardan biri də gözoxşayan dizaynda və nəfis tərtibatda işıq üzü görüb: "Cəbrayıl rayonunun toponimləri (ensiklopedik məlumat kitabı)"

İlk baxışdan görünür ki, kitab uzun müddətli axtarışların və zəhmətin bahasına meydana gəlib və müəlliflərin gördükləri işi təqdir etməyə bilmirsən.

Kitabın əvvəlində rayon rəhbərinin cəbrayıllılara müraciətindən aşkar görünür ki, vəsait onun tövsiyyəsi, məsələhətləri və mənəvi dəstəyi ilə işıq üzü görüb. Gəlin etiraf edək ki, digər region rəhbərləri ilə müqayisədə Mahmud müəllim belə məsələlərə həmişə can yanğısı ilə yanaşıb. Elə kitabın əvvəlində cəbrayıllılara müraciətində Mahmud müəllim yazır: "Görüşlərimizin (müəlliflərlə görüş nəzərdə tutulur - S.A.) hər birində məsələhət vermişəm ki, kitabdakı tarixi faktlara, hadisələrə tədqiqatçılıq yönümündən yanaşılsın, faktlar məntiqi baxımdan konkret, yerli-yerində olsun". Elə bu müraciətdən də görünür ki, başçı bu kitabın hazırlanmasını daim diqqət mərkəzində saxlamış, öz məsələhət və tövsiyyələrini esirgəməmişdir. Belə olan halda haqlı bir sual yaranır: görəsən, müəlliflər Mahmud müəllimin etimadını doğrulda biliblərmi? Və ən ümdəsi tarix və gələcək nəsillər qarşısında məsuliyyət hissini necə dəyərləndiriblər?

Mən yuxarıda qeyd etdim ki, gözoxşayan dizaynda və nəfis tərtibatda hazırlanmış bu kitab qonaəbxeş hesab edilə biləcək tədqiqat işidir. Artıq doğma yurd-yuva ilə, oldan çıxarılmış o torpaqlarla bağlı bütün məlumatları öz yaddaş boxçasında hifz edib saxlayan yaşlı nəsilin sıraları günü-gündən "sürətlə" seyrəlir və məcburi köçkünlük dövründə dünyaya gələn balalar isə o məlumatlardan bixəbərdilər. Allah qoysa, torpaqlar geri qaytarılandan sonra, doğma yurd yerlərinə dönən ovladlarımız üçün belə vəsaitlərin əhəmiyyəti ölçüyəgəlməzdir. Bu baxımdan bu tədqiqat işi ümdə və önəmli bir dəyər ehtiva edir özündə.

Kitabın özündə ehtiva etdiyi dəyərə və onun az-çox bir tədqiqat işi olması fikrimə kölgə salmadan deyim ki, bütün məziyyətləri ilə yanaşı, kitab nöqsanlardan və çatışmazlıqlardan da xali deyildir.

Tarix öz dilsiz-ağızsız, lal haraylarıyla deyir: "Siz mənə öz tədqiqatlarınızın danışmayın, mən özüm onu sizə olduğu kimi dikməyim, mən özüm onu sizə olduğu kimi dikə tə edirəm". Hər bir tədqiqatçının ən ümdə tə vəzifəsi tarixin dərin laylarında mürgüləyən hoqiqətləri üzə çıxarıb olduğu kimi xalqa çatdırmaqdır. Bəzən bu haqiqətlər elə dərin laylarda, tarix adlı o nəhrin elə ucqlarında qalır ki, onu üzə çıxarmaq müşkül məsələyə çevrilir. Belə olduqda tədqiqatçı tarix adlı o möhtəşəm və əsrarlı qəsrin qapısı ağzında durub fikrə dalır. Bu Hannibalın Romanın qapısı ağzında dayanıb, geri dönməsinə bənzəyir. Bax bu zaman tədqiqatçının köməyinə az-çox ictimai formasiyanın stereotiplərinə və zamanın dönəmlərinə müvafiq olaraq kamil təfəkküründən bəhrələnən və elmə əsaslanan məntiq gəlir.

Bob Danhemin "Yapon olmaq məharəti" kitabında belə bir deyim var: "Qərbdə adama ya hoqiqəti demirlər, ya da yalan danışırlar. Yaponlar isə demək olar, heç vaxt yalan danışmırlar, lakin hoqiqəti söyləmək heç vaxt ağıllarına gəlməz".

Maraqlı baxışdır, deyilmi? Hoqiqəti bilmirksə, onu əldə edib ortalığa çıxarmaqda acizikso, heç olmazsa yalan deməyək. El ağzında deyildiyi kimi: "Gözəl bilmirəmə nə vermişəm ki..."

Dilimizdə "ehtimal" adlanan bir istilah (termin) var. (Sözbəd riyazi ehtimaldan getmir) Bəzən hoqiqət yaxa ələ verməyəndə, müəyyən ehtimallar yürütmək olar. Lakin şəxsi güman lar və ehtimallara hoqiqət dəniz geyindirib xalqa "sırıma" olmaz. Bəzən bu ehtimallar hoqiqətə çox yaxın olurlar. Lakin qeyri-şəffaf qutuya atılmış müxtəlif rəngli şərlardan ən istədiyini çıxarmaq sınaqlarının ehtimalı çox az hallarda vahidə yaxın olur. Çox təəssüf ki, müəlliflər bəzən öz ehtimallarına, öz gümanlarına hoqiqət libası geyindirmək istəyirlər.

Yaxşı haldır müəlliflər əsasən istifadə etdikləri sitatların mənbəyini, hansı qaynaqlardan yararlandıqlarını göstərirlər. Bu həm də ədəbi oxlaqdır. Gotirilən sitatın mənbəyi, qaynağı göstərilmirsə, bu, artıq plagiatlıqdır. Hiss olunur ki, müəlliflər bu yanaşmaya əməl etməyə qismən də olsa say göstərirlər. Ancaq axıra kimi buna əməl edə bilməyiblər və ya etməyiblər. Məsələn, kitabda İ.Kazımovdan gotirilən sitat tamam başqa mənbədəndir.

Müəlliflərdən Atəş müəllimi yaxşı tanımıram. Kiçik, özündə elə də böyük mahiyyət ehtiva etməyən yazıları ilə çox az sayda məbuatda rastlaşmışam və buna görə də onun bu sahədə nə qədər potensial sahibi olması haqqında fikir yürüdə bilmərəm. Amma o da var ki, görünən dağ üçün bələdçiyə ehtiyac olmur.

Şakir Albalıyevi çoxdan tanıyıram və hətta bir müddət bir yerdə işləmişik də. Onun folklorla və etnoqrafiya ilə bağlı tədqiqat işləriylə tanışam. Doğrudur, bəzən mandırıcı və etibarlı dəlilə və tarixi faktlara söykənməyən öz şəxsi mülahizə və rəylərini təkzibolunmaz fakt kimi verməyə çalışır. Məndən rəncidə qalmasa, deyərdim ki, açığı mənə bir oxucu kimi qane edən işləri çox azdır.

Çapar Kazımova gəldikdə isə, onu kitabda olaraq onu deyə bilərəm ki, onun müxtəlif mənbə və qaynaqlardan bəhrələnməklə və tarixi fakt və dəlilləri söykənib araya-ərsəyə gətirdiyi tədqiqat işləri həmişə məndə rağbət hissi yaradıb.

Elə buradaca qeyd edim ki, bir neçə müəllif tərəfindən müştərək yazılmış vəsaitdə adətən hansı bölmənin, hansı hissənin kimin tərəfindən hazırlandığı qeyd olunur. Bu, ona görə əhəmiyyətlidir ki, kitabın hər hansı hissəsində və ya bölməsində olan çaşmışlıq və nöqsanlara görə kiminə "yaxasından yapışmaq" mümkün olsun.

Digər tərəfdən belə ensiklopedik məlumatlar vəsaiti hazırlanarkən hökmən olifba sırasının ardıcıllığı nəzərə alınmalıdır. Bu məsələyə kitabda diqqət çox azdır. Xüsusən də, ayrı-ayrı şəxslərin ad və soyadlarında bu nəzərə alınmayıb. Qəbul edilmiş ümumi qayda belədir ki, bu zaman ya adın, ya da soyadın baş hərfləri nəzərə alınmaqla tərtib işi aparılır. Bu, ahəngdar bir nizamlılıq yaradır və vəsaitdən istifadəni çox asanlaşdırır. Belə olduqda olifba ardıcıllığından xəbərdar olan hər kəs istənilən məlumatı eləstə və ehəm da vəsaiti çox vərəqləmədən əldə etmək imkanına malik olur. Bu kitabda isə bu sıralama ardıcıllığı o zaman pozula biler ki, vəzifə və xidmət ardıcıllığında vaxt və müddət esas götürülsün. Bu halda ardıcıllıq hə min vəzifə və xidmət sahiblərinin işlədiyi müddətlərin zaman ardıcıllığı ilə qeyd edilir. Əgər müəlliflər Azərbaycanda nəşr olunmuş çoxsaylı ensiklopediyalara nəzər salsaydılar, çox şey əxz edə bilərdilər.

* * *

Bilmirəm nə illətdirsə, kitabda başqa yerləri demirəm, Şahvəlli və şahvəlilər haqqında olan məlumatların bəzilərinə bir tələsknəlik, qeyri-dəqiqlik və biganəlik var. Və ən ümdəsi, kitaba düşməyən çoxlu sayda toponimlər var.

Bununla bağlı adıkeçən məlumat kitabını götürüb mənim üstümə gələn həmkəndlilərim az olmayıb. Onlar bunu belə işlərla maraqlanan və bu sahədə azacıq da olsa, təcrübəsi olan bir adam kimi mənə irad tutublar. Və onları inandıra bilməmişəm ki, mən bu kitabın hazırlanmasından bixəbərəm və bəzi şəxsiyyətlərin adlarının, çoxlu sayda digər məlumatların niyə kitabda yer almaması (bilərəkdən və ya bilməyərəkdən) səbəbini bilmirəm. Daha deyə bilmirəm ki, mənim tanıdığım və mütəmadi ünsiyyətdə olduğum həmin müəlliflər nədənsə məndən nəyisə soruşmağı özlərinə "sığışdırmayıblar". O da danılmaz haqiqətdir ki, hər hansı bir yerin az-çox huşyar olan əvladı, öz kəndi və yurd-yuvası ilə bağlı məlumatları, kimliyindən asılı olmayaraq o kəndden olmayanlardan qat-qat yaxşı bilirlər.

Fikrimin təsdiqi kimi bir neçə konkret misal göstərmək istəyirəm.

Gəncə Çini Qablar Zavodunun baş rəssamı, SSRİ Rəssamlar İttifaqının üzvü, 1991-ci ildə Azərbaycan Respublikası tərəfindən işləri İngiltərə kralına hədiyyə edilən yeganə azərbaycanlı rəssam olan İbişov Qüdrət Əmrah oğlu haqqında məlumatın, ümumiyyətlə, kitaba düşməməsi və uzun illər müxtəlif mosul vəzifələrdə çalışan, son iş yeri Respublika Avtomobil Müfettişliyində rəis

müavinliyi olan, xeyirxahlığı və səmimiyyəti ilə nəinki işlədiyi regionlarda, hetta bütün respublikada hələ də xoş xatirələrlə anılan polis polkovniki Yaqubov Murtuza Məhəmməd oğlunun adının kitabda adıçə bir "hüquqsünas" kəlməsi ilə anılması nə qədər sərmimidir?

Elə buradaca qeyd edim ki, bir neçə müəllif tərəfindən müştərək yazılmış vəsaitdə adətən hansı bölmənin, hansı hissənin kimin tərəfindən hazırlandığı qeyd olunur. Bu, ona görə əhəmiyyətlidir ki, kitabın hər hansı hissəsində və ya bölməsində olan çaşmışlıq və nöqsanlara görə kiminə "yaxasından yapışmaq" mümkün olsun.

Digər tərəfdən belə ensiklopedik məlumatlar vəsaiti hazırlanarkən hökmən olifba sırasının ardıcıllığı nəzərə alınmalıdır. Bu məsələyə kitabda diqqət çox azdır. Xüsusən də, ayrı-ayrı şəxslərin ad və soyadlarında bu nəzərə alınmayıb. Qəbul edilmiş ümumi qayda belədir ki, bu zaman ya adın, ya da soyadın baş hərfləri nəzərə alınmaqla tərtib işi aparılır. Bu, ahəngdar bir nizamlılıq yaradır və vəsaitdən istifadəni çox asanlaşdırır. Belə olduqda olifba ardıcıllığından xəbərdar olan hər kəs istənilən məlumatı eləstə və ehəm da vəsaiti çox vərəqləmədən əldə etmək imkanına malik olur. Bu kitabda isə bu sıralama ardıcıllığı o zaman pozula biler ki, vəzifə və xidmət ardıcıllığında vaxt və müddət esas götürülsün. Bu halda ardıcıllıq hə min vəzifə və xidmət sahiblərinin işlədiyi müddətlərin zaman ardıcıllığı ilə qeyd edilir. Əgər müəlliflər Azərbaycanda nəşr olunmuş çoxsaylı ensiklopediyalara nəzər salsaydılar, çox şey əxz edə bilərdilər.

Bilmirəm niyə müəlliflər şəxsiyyətinə və alimliyinə böyük rəğbət beslədiyim professor Ə.Məmmədova istinadən göstərirlər ki, Əhmədlilər təxminən XV əsrdə Azərbaycana köçüblər. (Baxmayaraq ki, mən bu fikri də qəbul etmirəm və bununla bağlı uzun araşdırmaların nəticəsi kimi güldüyüm qənaət var və bu, başqa söhbətin mövzusu olduğundan üstündən keçirəm. Amma onu da qeyd edim ki, bu ərazilərin mövcudluğu tarixin daha dərin qatlarına gedib çıxır. Azərbaycan huşyar olan tarixçilər bilirlər ki, bu ərazilər Midiya (e.ə VII-IV əsrlər), Əhəmənilər imperiyasının (e.ə IV-III əsrlər), Albaniya (e.ə IV-III əsrlər) dövlətlərinin tərkibində olmuşdur. Cəbrayıl sözünün bir variantı da ərəbcə «Allahın qulası» deməkdir. Digər tərəfdən Əhmədlilərin kökü birbaşa Cəbrayıl Ataya (VIII əsr) gedib çıxırsa, XV əsrdə hansı köçürülmədən danışmaq olar?) *

Etiraf edirəm ki, mən özüm də bir neçə il əvvəl nəşr etdirdiyim "Kəndim mənim - Kabam mənim" poema kitabımda öləri de olsa, Şahvəllim Şah Vəli adı ilə bağlamışdım. (Açığını deyim ki, burada sırf şair təxəyyülünə meydan vermişdim.)

Şah və Vəli sözləri birlikdə və ayrılıqda yazıldıqda ayrı-ayrı mahiyyət kəsb edirlər. Bunlar birlikdə yazıldıqda "şah" sözü şəxs adının bir komponenti olur. Ayrılıqda yazıldıqda isə bu söz artıq titul olur. Bu halda söz Vəli adlı şəxsin şah olmasını diktə edir. Adıçə sədə iki sözün "reqsindən" yaranan fərqə diqqət yetirirsinizmi?!

Şah sözünün başqa adlara qoşularaq yeni adlar yaratmasına saysız-hesabsız nümunələr göstərmək olar. Şahverdi, Şahmərdan, Şahkərim, Şahmurad və s. bu qəbildəndir. Bu həm də qadın adlarına qoşulub yeni adlar yarada bilir: Şahbikə, Şahxanım, Şahbacı və s. Tarixdən də gürkəmli şəxsiyyətlərin adlarında "şah" komponentinin işlənməsinə çoxlu nümunələr göstərmək olar. Məs., Qazax mahalından şairə Şahnigar xanım Dəncur böyük tərəqqi səhibi Mir Həmzə Seyid Nigarinin həmməsiri olmuş və ona gözəl nəzirələr yazmışdır. Demali, Şahvəlli kəndinin adından danışarkən "Şah Vəli"dən yox, "Şahvəli"dən yararlanmaq daha əlğabatandır. Bu sözə İi şəkilçisi artırılaraq Şahvəlli şəklinə düşmüş, bu da el ağzında deformasiyaya uğraraq daha asan və rahat səslənən Şahvəlli şəklinə gelib çıxmış və yer-yurd adına çevrilmişdir.

Əgər müəlliflər daha mandırıcı faktlarla öz fikirlərini oltuğ etsələr, mən məmnuniyyətlə öz yanaşmamdan geri çəkilmeyə və hətta üzrxahlıq etməyə hazıram. Amma əminəm ki, onlar belə dəlillərə malik deyillər.

İsaxh və Hacısmayılı kəndlərinə gəldikdə müdrikləri söhbətlərindən yaddaşımda qalanları bölüşmək istəyirəm.

Əhmədlidə İsaxla İsmayıl əmioğlu olublar. Onların hər iksi Cəbrayıl Atanın törəmələridirlər. Cəbrayıl Atanın oğlanlarından birinin adı Yarəhmədi olub. Yarəhmədin iki oğlanlarından birinin adı Şıxı, digərinin adı isə Əhməd olub. İsmayıl Şıxının, İsax isə Əhmədin oğludur. Onların nəsilləri əvvəllər daha şimalda (təxminən indiki Yarəhmədli kəndinin yaxınlığında) yaşamış və heyvandarlıqla məşğul olmuşlar. Çox sonralar İsaxla İsmayıl artan heyvan sürülərinə və mal-qara nəxirlarına daha geniş və olahidə otlaq və örüş sahələri əldə etmək məqsədilə daha aşağıya (cənuba) köçmüş və hazırda kəndlərin yerləşdiyi ərazidən 500-600 metr yuxarıda binələnmişlər.

(Davamı 14-cü səhifədə)

Tarixi təhrif etmək və ya onu unutmaq gələcək nəsillərin qınağı üçün əsaslı zəmindir

(Əvvəli 11-ci səhifədə)

Sonralar suya daha yaxın olmaq üçün kəndlərin bazırda olduqları yerə - İsmayıl sonralar Hacısmayıllı dərəsi adlanan dərənin sağ sahilinə, İsax isə sonralar onun adıyla İsaxlı dərəsi adlanan dərənin sol sahilinə köçmüşlər. Sonralar İsmayıl hacı ziyarətinə gedib Hacı titulunu qazanandan sonra, o kənd onun adıyla bağlı Hacı İsmayıllı olub. Bu ad el ağzında deformasiyaya uğrayıb təhrif olunaraq Hayısmaıllı kimi işlədilib. (Hacı İsmayılın nəsil ardıcılığı belədir: Cəbrayıl Ata - Yarəhməd - Şıxı - Hacı İsmayıl (Hacı İsmayılın Allahverdi və Almməmməd adında iki oğlu olub. Almməmmədin oğlanları: Məmmməd, Gülməmməd və Vəlməmməd. Vəlməmmədin oğlanları: Xasməmməd və Hüseyn)

İsaxlı kəndi də İsağın adı ilə adlandırılıb. (İsağın nəsil ardıcılığı: Cəbrayıl Ata -Yarəhməd - Əhməd - İsax - Kərim (oğlanları: Abdulazim, Ağammməd, Cəbbar, Məhəmməd, Vəli, Alı) - Alının övladları: Məmməd, Xeyrənsə, Hacı Abdulla (mənim ata babam))

İsaxla İsmayıl əmioğlı olduqlarından, deməli, bu kəndlər əmioğlı sayılırlar. Bu iki kəndi biri-birindən bir dərə ayırsa da və onların sakinləri bu taydan o biri taya adı danışıq tərzində söhbətləşə bilsələr də, xarakter baxımından tamamilə fərqlənirdilər. (Mən bu haqda "Kəndim mənim - Pirim mənim" kitabımda ətraflı yazmışam)

Məsələ burasındadır ki, İsaxlı adı kitabda Hacı İsaxlı kimi gedir. Mən bunu müəlliflərin xətası kimi qiymətləndirmirəm. İş orasındadır ki, hələ ötən əsrdə yetmişinci illərin sonu, səksəninci illərin əvvəllərində dövlət tərəfindən əsaslı qeydiyyat aparılarkən kəndin adının əvvəlinə Hacı dini titulu artırılmışdı. Görünür, bunu qeyd olunan isaxlılarla soy baxımından heç bir əlaqəsi olmayan və Qərbi Azərbaycandan köçüb gələnlərin məskunlaşdığı, rayonun şimalındakı İsaxlı (Xocamisaxlı) kəndindən fərqləndirmək üçün ediblər. Bu sahv yanaşmadır. Çünki həmin iki qardaşdan yalnız İsmayıl hacı ziyarətində olub, İsax isə nə qədər arzulasa da, bu, ona qismət olmayıb; acol onun Hacı olmaq arzusunun qarşısına sədd çəkib. Bunu siriklilərdə (Yuxarı Sirik, Aşağı Sirik) və yaxud mozrə-lilərdə (Yuxarı Mozrə, Aşağı Mozrə) olduğu kimi Yuxarı İsaxlı və Aşağı İsaxlı kimi vermək daha düzgün idarə.

Kitabda birca cümlə ilə Keyxalli adının şəxs adından yaandığı vurğulanıb, lakin onun mahiyyəti açıqlanmayıb. Müəlliflərin adın yaranmasına yanaşmaları doğrudur. (Onlar bunu sadəcə olaraq təxmin ediblər. Ona görə də heç bir dəlil göstərə bilməyiblər) Doğrudan da Kovxa Alı konkret tarixi şəxsiyyət olub. İsaxla İsmayıl o ərazidə bir nələşəndən bir müddət sonra, həmin Alı onlardan razılıq alıb Hacısmayıllı kəndinin söykəndiyi yalın (sonralar Keyxalli yalının) qərb hissəsindəki yamacda yurd salıb. O kəndlərin tarixini və nəsil şücərələrini hətta bir çox etnoqrafdan yaxşı bilən nənəm Zübeyda Çələbi danışırdı ki, Alı çox qoçaq, şəqqalı və zabitoli adam olub. Onun kovxa təyin olunmasının da ərazi tərixəsi var. Bir gün bu kəndlərə kovxa təyin etmək üçün yuxarı instansiyadan gəlib mənim babamgilə düşürlər. Əvvəlcə bu vəzifəni babama təklif edirlər. Babam da öz növbəsində bu vəzifəyə keçəndən sonra, nə vaxtsa adamlarla üz-göz olacağından və buna görə də zaman-zaman qazandığı hörmətdən düşməyindən ehtiyat edib, həmin təklifdən imtina edir. Babam bir neçə adamın namizədliyini təklif edir və o adamları bir-bir çağırırdırlar və bu dəvət olunanların hamısı kölgəlikdə oturan babamgilə çatandan sonra atdan düşürlər. Bunlarla söhbətdən sonra onların bu vəzifəyə yaramadıqları qənaətinə gəlirlər. Nəhayət, babam Alını çağırmaq üçün çapar göndərir. Çox keçmir ki, Keyxalli yalından aşıb gələn bir atlı görünür: bu, Alı olur. Alı dərənin o biri tayında evin qənşərində piyadalanıb atını yedəkləyir və dərəni piyada keçib oturanlara yaxınlaşır. Alı hələ gəlib çatmamış onun bu qabiliyyətini görən həmin adam deyir ki, deyəsən, axtardığımızı tapmışıq. Və doğrudan da, söhbət əsnasında Alının yaxşı namizəd olması qənaətinə gəlirlər və beləliklə, Alı kovxa olur.

Elə buradaca sözügedən məsələyə o qədər də dəxli olmasa da, bir məqama toxunmaq istəyirəm.

Bəzi tədqiqatçılar kovxa sözünü bozon kəndxuda (kətxuda), darğa ...ilə eyniləşdirirlər. Bu cür yanaşma düzgün deyil. Bu sözlər həmmüasir və yaxın mənalı olsalar da, sırf həmmənə deyillər. Kovxa və kəndxuda kənd yerlərində, darğa isə kovxa və kəndxuda da (kətxuda)dan fərqli olaraq, adətən şəhər yerlərində, qəza mərkəzlərində və s. iri yaşayış məntəqələrində olardı. Bir neçə darğa və rəhbərlik edən darğabaşılar da olmuşdur. Bunu isə kovxalara və kəndxudalara şamil etmək olmaz. Baxmayaraq ki, vəzifə və səlahiyyət baxımından üst-üstə düşmələr var.

Mən ümumiyyətlə, sinonim sözlərin sırf müstəqim mənada eyni mənə və mahiyyət daşıdığını deyənlərə həmişə etiraz etməşəm. Çünki dil elə qədrətli bir varlıqdır ki, artıq sözün onda yurd-yuva qurub yaşamasına imkan vermaz. Hökmən fərqli çalar və nüanslar olmalıdır. Yoxsa, o sözə dildə yaşarlıq hüququ qazana bilmaz.

Keyxalli kəndi də əvvəllər indi mövcud olduğu yerdən yuxarıda, Adamqırılan (müəlliflər səhv olaraq bu yeri Qırğın dərəsi adlandırırlar-S.A.) deyilən yerdə salınıb. Sonralar isə indiki olduğu yerə köçüb.

Kitabda müəlliflərin Qoşabulaq kəndinin Yəhya Çələbinin şərəfinə adlandırılmasını qeyd etmələri haqiqətdir. Çünki bu, uzaq keçmiş deyil və hətta cavanlar da bunun məhz müəlliflərin qeyd etdikləri kimi olduğunu yaxşı bilirlər. Ancaq məsələ orasındadır ki, Qoşabulaq adından əvvəl Domşalaq adlanan bu kəndin necə yaranması, salınılıbın ordan nə vaxt və necə məskunlaşması haqqında bir kəlmə də məlumat yoxdur.

Şahvəlli inzibati ərazi vahidliyinə daxil olan digər kəndlərlə müqayisədə Domşalaq (sonralar Qoşabulaq) kəndi çox-çox sonralar yaradılıb. Və bu kəndin ilk sakinlərinin əhmədlilərdə heç bir bağlılığı yoxdur. Hacısmayıllı kəndindən olan dünyagörmüş, hazırda Bakı şəhərində yaşayan Əziz Nəsirovun həmin ilk sakinlərin kəndin yerləşdiyi yerdə necə məskunlaşmalarını detallarıyla özündə əks etdirən və öz əliyla yazıb mənə verdiyi yazını azacıq redakte ilə burda verirəm: "İrandan gələn bu nəslin orda yaşayan başqa bir nəslilə torpaq münaqişəsi olur. Davada hər iki tərəfdən ölənlər olur və araya qanlıçılıq düşür. Bunlar o biri nəslin qarşısında duruş gətirə bilməyəcəklərini görüb, gecə iken öz yurd-yuvalarını tərk edib Arazdan keçərək həmin ərəziyə gəlirlər. Daha yuxarılara üz tutan bu köçü, həmin ərazinin sahibi Hacı Hüseyn bir gün öz binələrində saxlayıb yedirib-içirir. Köç Hacı Qaramana sarı istiqamət götürür. Öz əsabələri ilə seyrə çıxan, hələ o vaxt çox gənc olan Hacı Qasım Çələbi bu köçlə rastlaşır. Onların bu yerlərin adamları olmadığını, qərib olduqlarını görüb, kimliklərini ilə maraqlanır. Onlar da onları sorğu-suala tutan bu gəncin adi adam olmadığını görüb, heç nəyi gizlətmədən başlarına gələnləri təfsilatı ilə Çələbiyə danışırlar. Çələbi də öz növbəsində: "Dönün Hacı Hüseynin yanına. O, çox saxavətli, mərd və Allah adamıdır, iman sahibidir. Bəlkə yin ki, bizi Hacı Qasım Çələbi qaytardı və dedi ki, yurd salmaq üçün Hacı bizə bir yer göstərsin", - deyib onları geri döndərir. Beləliklə Çələbinin tapşırığıyla Hacı Hüseyn öz torpaqlarından indi kəndin yerləşdiyi ərazini onlara verir. Hacı Hüseynin Əziz adında bir oğlu, on bir qızı olur. Sonralar Hacı Hüseyn qızlarından o nəslin cavanlarınaərə verir və beləliklə qohum olurlar".

Hacı Qasım Çələbinin ölən ərsin 28-ci ilində Tanrı dərgahına qovuşmasını nəzərə alsaq, aydın olur ki, bu kəndin ilk sakinlərinin Azərbaycana gəlişi digər kəndlərlə müqayisədə hap yaxın vaxta, hardasa XIX əsrin sonu və XX əsrin ilk illərinə təsadüf edir.

El aşəqqadı, hamının inanc və göynü yeri, sözün müstəqim mənasında ensiklopedik məlumata malik Yəhya Çələbi ilə söhbətlərimizin birində şəxsən eşitmişəm ki, gəlib həmin yerdə məskunlaşan o adamlar kürd əsilli olublar. Yəhya Çələbi də ki, elə kəramət və qüdrət sahibydi ki, tam əmin olmadığı sözü dilinə gətirməzdi. Və yenə də Yəhya Çələbinin sözlərinə görə həmin ilk sakinlər qoçaq, çox zirək olmağa yanaşı, davakar və bir az da ağızdan portov olublar. Elə buna görə də ətraf kəndlərin adamları onları dəmşalaq adlandırıblar. Ayrı-ayrı tədqiqatçıların bu sözə müxtəlif yanaşmaları mövcud olsa da, bu sözün neqativ mahiyyət daşıyan yozumu da var. Bu səbəbdən də kənd o adamların davranış və rəftarlarına görə Domşalaq adlandırılmış və bu ad zaman-zaman o kəndin boynunda qalmışdır. O kəndin adının dəyişdirilib Qoşabulaq qoyulmasına isə Yəhya Çələbiyə görə və həm də Domşalaq adının bu kəndin üstündən götürülməsinə görə necə fərəh və məmnunluq hissləri yaşadıqlarının şahidiyəm.

...İndi isə kitabda Şahvəlli inzibati ərazi vahidliyinə daxil olan bəzi yer-yurd adlarının təhrif edilməsi və yanlış yozulması barədə bir neçə fakt göstərmək istəyirəm.

SARI GÖBƏK

"Sarı göbələk dərəsi" oronimi haqqında müəlliflərin hansı qaynaqdan bəhrələndikləri, haradan və ya kimdən eşitdikləri mənim-çün sadəcə olaraq bir müəmmadır. Ümumiyyətlə, Şahvəlli inzibati ərazi vahidliyinə daxil olan ərazilərdə belə bir oronim yoxdur. Bu oronim "Sarı göbələk dərəsi" yox, sadəcə olaraq "Sarı göbək"dir. Özü də Sarı göbək dərəsə yox, tepənin döşündə, Qoşabulaq kəndindən 400-500 metr cənub-qərbə yerləşir. Coğrafi mövqeyinə görə insan göbəyini andırdığına görə belə adlandırılmışdır. Müəlliflərin oronimin adını səhv vermələri bir yana, hələ onun "məhsuldarlığından" da danışırlar: "Sarı rəngdə çoxlu göbələk bitən dərə (???-S.A.)".

Həmin ərazini bircə dəfə görən hər bir kəs yaxşı bilir ki, ora başdan-başa sarı torpaqdır. Biz də lap ibtidai siniflərdən bilirik ki, göbələk münbit yerlərdə bitər. Mən o ərazidə sarı rəngdə göbələyin bitdiyini görməmişəm, görənləri də eşitməmişəm. Doğrudur, təbiətdə sarı göbələklər var və onlar dadına-təminə görə digər göbələklərdən fərqlənirlər. Bu göbələklər əsasən meşələrdə bitirlər. (Xüsusən də kükənar ağaclarının bitdiyi ərazidə) Sarı göbək ərazisində isə meşə yoxdur. (Mən kəndin ağsaqqalarından biri, yaşı səksənin dabanını dövqələyən, həm də pəvan təbli şair olan Əziz Nəsirdən "Sarı göbək"də göbələk bitdiyini görübgörməməsi haqqında soruşanda, istehzavari bir təbəssümlə qımışıb dedi: "Müəllim, uşaqsan, orda göbələk bitər hey?")

Sarı göbək Yaqublıların (Yaqubov Əlinin nəslinin) mülkiyyəti olub.

TÖHMƏLƏR

Müəlliflər Töhmə təpə oronimini Şahvəlli ərazisinə aid edirlər. Əslində isə Şahvəlli ərazisində Töhmə təpə oronimi yoxdur, Töhmələr var. Təəccüblüdür ki, bu oronimlə bağlı mənim romanımdan əsərdə olduğu kimi gətirilən sitatda müəlliflər düzgün olaraq "Töhmələr" terminini işlətmişlər. (mən işlətdiyim kimi) Amma başlıq kimi fərqləndirəndə "Töhmə təpə" kimi qeyd etmişlər. Yenə də həmin sözə cəm şəkilçisi artırsaydılar "dərd yarıydı". Çünki orada bir yox, bir neçə təpə var. Digər tərəfdən onlar adı təpələr deyillər, daha böyük mahiyyət daşıyırsı olan kurqanlardılar. Həmin oronimə "təpə" sözünü qoşmaq, onun özünün ehtiva etdiyi mahiyyəti cılızlaşdırmaq deməkdir. Belə vəsatətdə terminin qrammatik baxımdan deyilişinə yox, onun el ağzında necə səsləndəsinə diqqət yetirilməlidir. Yeni hər hansı termin el ağzında necə səslənirsə, elə də qəbul edilməlidir.

QAŞQA DƏRƏSİ

Əvvəla bu yer kitabda göstərildiyi kimi Qoşabulaq ərazisində yox, Şahvəlli kəndinin şimalında Xanxey yurdu deyilən yerdən yuxarıda, Çayyatağa gedən yolun qərbində yerləşir. Terminin özünə yanaşma da yanlışdır. Müəlliflər yazırlar: "...dərə boz (qaşqa-?-S.A) rəngə çalan çay daşları ilə örtülü olduğuna görə belə adlandırılmışdır". Çox səhv və tronyalı təbəssüm doğuran yanaşmadır. Həmin yeri görənlər bunun belə olmadığını yaxşı bilirlər. "Qaşqa" sözünün müəlliflərin göstərdikləri yozumu ilə yanaşı "at, inək, öküz və s. ev heyvanlarının alnında olan ağ leka" mənası ilə bərabər, "alnın ton ortası" mənası da var. Bu yer coğrafi mövqeyinə görə Çayyatağla Şahvəllinin arasındakı "alnın" ortasında qaşqa kimi yerləşdiyindən belə adlandırılmışdır.

CİNGİR BULAĞI

Müəlliflərin "Cingir bulağı" hidroniminə yanaşmaları lap yumşaq desək gülüncdür. Əgər müəlliflər o bulağı görsəydilər, onun necə üzə çıxdığını beç olmazsa, birca dəfə müşahidə etmiş olsaydılar, kitabda verdikləri yanaşmaya özləri də ehtiyatla yanaşardılar. Müəlliflər yazırlar:"Beləliklə, hidronimin mənası "cingi tayfasının çəkdiyi bulaq" deməkdir". Cümlənin quruluşuna görə bu artıq hökmdür. qəti qərardır. Guya ki, müəlliflər təkzibinə əl yeri qoyula bilinməyəcək hansısa bir dəlilə malikdirlər. Əslində cümlə ilə qurulmalıydı ki, fikir ehtimal kimi səslənsin. ("...anlamına gəlir", "...kimi qəbul etmək olar" və s)

Hər hansı fikri ifadə edərkən cümlənin necə qurulması çox böyük əhəmiyyət kəsb edir. Elə buradaca haşiyə çıxıb bir faktı oxucuların diqqətinə çatdırmaq istəyirəm.

Belə ki, Azərbaycan Milli EA-nın həqiqi üzvü Ağamusa Axundov özünün "Torpağın kökündə tarixin izləri" kitabında (116-118-ci səhifələrdə) yazır:"Qaraqoyunlu - bu Azərbaycan toponimiyasında tərkibində "qara" sözü olan çox az yayılmış yer adlarından biridir. Həmin oykonimlə (əslində zootoponim olmalıdır-S.A.) adlanan üç kənd vardır. Onlardan biri Ağsu rayonunun Qaraqoyunlu, ikincisi Bərdə rayonunun Güloğullar, üçüncüsü isə Qubadlı rayonunun Xocahəsən (bəlkə də yanılıram, amma bildiyimə görə Qubadlı rayonunda bu adda kənd yoxdur, Xocahan var - S.A.) kənd sovetliklərindədir". Fikir verirsinizmi müəllifin fikri təkzibinə əl yeri qoyula bilinməyəcək qəti qərar kimi səslənir. Belə çıxır ki, bu üçündən başqa Azərbaycanda Qaraqoyunlu adında yer-yurd adları yoxdur. Amma sıravi bir rus dili və ədəbiyyatı müəllimi Ağamusa müəllimə yazdığı və mətbuatda işşi üzü görən "Tarixi susdurmayın, həqiqət susan deyil! "adlı açıq məktubunda ünvan göstərməklə dəqiq faktlarla Azərbaycan ərazisində Qaraqoyunlu sözünü özündə yaşadan daha on sokkiz (Bəlkə də daha diqqətli tədqiqat aparılsa, yenə də bu adda yer-yurd adları ortalığa çıxarmaq olar-S.A) yer-yurd adı olduğunu müəyyənləşdirmiş və akademikin yazdıqlarını ali-üst etmişdir. Bax elə buna görə də belə məsələlərdə çox ehtiyatlı və hərəsə olmaq lazımdır.

Və mənə elə gəlir ki, digər müəlliflər (hətta biri alimdir - ? -S.A) bilməmiş deyillər ki, arxı, yolu, kanalı və s. çəkərlər, bulağı yox. Bulağı isə hər hansı bir yeri qazıb çıxararlar. Əgər yerin altındakı su özü qaynayıb çıxırsa və ya yeri qazıb onun altındakı suyu üzə, yəni yer səthinə çıxarırlarsa, o artıq bulaq olur, dostlar. (Söhbət süni, yəni hardansa çəkib getirərək (arxla, boruyla və s.) yaradılan bulaqlardan getmir.)

Mənim yaddaşımın kövrək uşaqlıq xatirələrindən biri olan bu bulaq Keyxalli kəndindən təxminən 400-500 metr qərbdə hər tərəfi qalın qarğılıq olan bir ərazidə yerləşir. Bu bulaq bolsulu deyildi, sızqa idi. Dəri xəstəliklərinin, xüsusən də qotur xəstəliyinin müalicəsində əvəzsiz idi. Nəinki ətraf kəndlərdən və Cəbrayıldan, hətta qonşu rayonlardan da bura müalicə və ziyarət məqsədi ilə gələrdilər.

Bu bulaq nəhayəti bilinməyən iki lağımdan süzülüb gələn sudan bəhrələnirdi.

Həmin lağımların qərbə görkəmləri vardı. Lağımın hər yeri ölçüləri biri-birindən fərqlənən həndəsi oval şəklində idi. İçəridə kükürd qoxusuna oxşar qəribə bir qoxu vardı. Yan divarlardan iri su damlaları həzin-həzin, ağır-ağır süzülürdü. Yuxarıdan daman (axan yox, məhz daman) damcılar isə hər dəfə aşağı düşüb suya qarışanda onu lopələndirər və həzin bir musiqini andırıb ruha sağal çəkən qəribə bir səs yaradırdılar. Bu damlalar da birləşib axına çevrilər və üzə çıxardı. Və ən qəribəsi o idi ki, burada insan əmoyinin mövcudluğundan bir nişanə və ya əlamət yox idi. Çünki əgər həmin yerdə insan əmoyindən istifadə edilmiş olsaydı, nəhayəti bilinməyən o uzunluqda lağım atnaq üçün kəhrizlərdə olduğu kimi havalanma (oksigenin daxil olması) və qazıları torpağın çıxarılması üçün qazıcan quyuların heç olmazsa kiçik bir izinə rast gəlmək olardı. Belə bir dəlil isə o ətrafda yoxdur. Digər tərəfdən bu lağımların ölçüləri elə idi ki, ora girib hansısa qazıntı işi aparmaq qeyr-mümkün idi.

Mənim qanaətimcə elə buna görə də müəlliflərin qəbul etmək istəmədikləri tənqir, tənqri - Tanrı yanaşması daha inandırıcıdır. Bu versiya həm də ona görə inandırıcıdır ki, bulaq həm də ziyarətgah idi. Mən dəfələrlə həmin bulağa nəinki Cəbrayıldan, hətta qonşu Zəngilan, Qubadlı,... rayonlarından da ziyarətə gələnlərin şahidi olmuşam. Ona görə də mən:"cingi tayfasının çəkdiyi (?-S.A.) bulaq" versiyasına yox, "Tanrı bulağı", "Tanrının yaratdığı bulaq" versiyasına daha çox üstünlük verirəm.

(Davamı var)